# Sonuncu sərnişin

***Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Yaradıcılıq Fondu və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə ümmumilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunan "Quran motivləri əsasında hekayələr" müsabiqəsində "Ədalət" qəzetinin müxbiri, şairə-tərcüməçi, yazar Şəfiqə Şəfanın "Sonuncu sərnişin" hekayəsi ölkənin üç nüfuzlu qurumunun (Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, "525-ci qəzet" və Qafqaz Universiteti) mükafatına layiq görülüb.***

***Adalet.az "Sonuncu sərnişin" hekayəsini təqdim edir:***

***

***(Əvvəli qəzetimizin 14 may sayında)***

Kişilərdən aralanıb kafenin qarşısından keçərkən istər-istəməz içəri baxdım. Bəlkə bura sığınıb?! Qapıya yaxın qoyulmuş masanı təmizləyən ofisiant oğlan təəccüblə mənə yaxınlaşaraq:

- Buyurun, nəsə lazım idi? - oğlanın nəzakətli davranışından ürəklənib:

- Bəlkə buralarda yaşlı bir qadın görmüş olasız, ola bilsin bu ərazidən keçib.

- Necə qadın idi ?

- Qoca bəstəboy, başörpəkli

Oğlan gözlərini qıyıb:

- Girdəsifət, bir az dolu deyildi ki ?

- Hə, Hə! Odur, harda, nə vaxt gördünüz?

- Təxminən yarım saat bundan əvvəl məndən marşrut soruşdu. Hansısa qəsəbəyə

- Hökməliyə!

- Hə, elədir, mən də dedim ki, bilmirəm. Çox narahat görünürdü. Deyəsən ağlamışdı. Sonra dodaqaltı nəsə deyə-deyə buralarda gəzişməyə başladı. Mən də öz işimlə məşğul olmağa davam etdim.

-Heç olmasa, burdan bir avtobusa mindirib şəhərə yola sala bilərdiniz! - özümdən asılı olmadan narahatlıq dolu incikliyimi dilə gətirdim.

-Xanım, vallah mən də çox istərdim, amma kafenin sahibi çox sərt adamdı. Bir dəqiqə işdən aralanmağımıza icazə vermir. Yoxsa

- Sonra hara getdiyini görmədiniz ki? - onun özünəbəraətinin artıq heç bir mənası yox idi.

- Elə o dəqiqələrdə burda dava baş vermişdi. Müştərilər bir-birinə qarışmışdı. Hətta bəziləri küçəyə çıxıb dalaşırdılar. Deyəsən, o aralarda çıxıb getdi, daha görmədim.

Yazıq qadın, yəqin çox qorxub! Axı indi o harada ola bilər?! Allahım, kaş ki getmiş olsun. Kaş məndən qabaq kimsə ona kömək edəydi! Tanrının qəzəbi, vicdanın hökmü qarşısında bükülmüşdüm. Mən çoxisimli, tək hakimin etimadını doğrulda bilməməkdən qorxurdum Son ümidlə yolkənarı ticarət, iaşə obyektlərinin künc-bucağını sanki iynə axtarırmış kimi diqqətlə gəzirdim. Dalanlara doluşmuş it-pişiklər belə onları narahat edən qızın üzünə matdım-matdım baxır, bəziləri quyruqlarını bulayır, bəziləri isə cırnayıb üstümə cumurdular. Daha baxa biləcəyim yer qalmadığından evimin yolunu tutmaq istədim. Yox idi özümə təsəlli verməK üçün dilim "əlimdən gələni etdim, onun üçün gecənin qaranlığında təkbaşına bu qədər yol gəlib axtarmışam, daha bundan artıq nə edim ki?!" desə də, ürəyim və ona hakim kəsilmiş vicdanım bu fikirlə razılaşmırdı. Şosenin sürətlə şütüyən avtomobillərdən "təmizlənməsini" gözləyərkən son olaraq ətrafa bir də göz gəzdirdim. Bəlkə baxmadığım, gözümdən qaçmış bir yer qalıb Aha! qarşı tərəfdən gələn maşın küçəni burularkən, işığı dayandığım yerdən təxminən 30 metr aralı köşkə bənzər bir yeri aydınlatdı. Küçənin bu hissəsi daha qaranlıq olduğundan buranı görə bilməmişdim. Ürəyim rahat olsun deyə oraya da baxmağa qərar verdim. Yeyin addımlarla yaxınlaşdım. Üstünün boyağı tökülmüş, paslı, köhnə dəmir köşk idi.. Əvvəlcə içəri baxmağa ürək eləməsəm də bütün cəsarətimi toplayıb yavaş-yavaş, qorxa-qorxa köşkə yaxınlaşdım. Ayaq saxlayıb dinşədim. Sanki kimsə inildəyirdi. Bir neçə addım da atıb qulağımı dəmirə söykədim. Hə, içəridəki hər kimiydisə xısın-xısın ağlayırdı. Ürəyim sanki köksümdə deyil, ağzımda döyünməyə başladı. Bu səs, inilti tanış idi. Bu, o idi İçəriyə dərhal girib onu qorxutmamaq üçün əvvəlcə əlimdəki fənəri köşkün kənarına tutdum. Kiminsə gəldiyindən onu xəbərdar edəndən sonra "kim var burda?" deyib içəri girdim. Zavallı qorxmuş, üşümüş halda köşkün küncünə sığınmışdı. Məni görcək səndirləyib qalxdı. Onu tapdığıma sevindiyimdən öncə nə deyəcəyimi bilmədim. Sanki dilim "şükür" pıçıldamaqdan başqa heç bir sözə dönmürdü. Elə yaşlı qadın da nə baş verdiyini anlamadığından matdım-matdım üzümə baxırdı. Handan-hana özümə gəlib:

- Mən sənin dalınca gəlmişəm

- Səni oğlum göndərib? Yəqin Pakizəgil azdığımı biliblər, səni dalımca göndəriblər, hə? - deyə qadın sevindiyindən suallar yağdırmağa başladı.

-Yox məni insanlar deyil, Allah göndərib. Gedək, sonra maşın tapmarıq, - deyib əlindən yapışdım. Soyuq, nəm, titrək əlləri sanki daş parçası kimi hərəkətsiz idi. O çaşıb qalmışdı. Elə bil son sözümdən sonra mənim adi insan olmağımdan şübhələnir, heyrətlə üzümə baxırdı. Onu daha artıq təlaşlandırmamaq üçün:

- Mən sənlə bir avtobusda gəlirdim, Sən Hökməliyə gedən avtobus əvəzinə çaşıb başqa avtobusa minmişdin. Bayaq sənə kömək etmək istəsəm də bir işim çıxdı evə dəyib qayıtdım. Bayaqdan səni axtarıram, - deyə hadisələri ardıcıllıqla, bir az dəyişilmiş şəkildə ona izah etdim. Elə bunu demişdim ki, qadın boynuma sarılıb hönkürdü. Onu sakitləşdirmək istəsəm də, lazımi söz tapa bilmədiyimdən yalnız qucaqlamaqla kifayətləndim. Əslində belə məqamda heç sözə ehtiyac da yox idi. Bəzi anlarda söz çox gücsüz olur. Buna sözün bitdiyi yer də demək olar. Hisslərini bürüzə vermək üçün tək bir xoş baxış, təbəssüm və ya toxunuş kifayət edir.



- Sən Xızır peyğəmbər kimi dadıma yetişdin ay bala, məni tanımaya-tanımaya, gecə gözü küçələrdə məni axtarıbsan. Bunu heç adamın doğma balası da eləməz. Sən mələksən, vallah Sənə qurban olaram, səni göndərən Allaha şükür! - Ay işığında parlayan göz yaşları bu dəfə sevincdən idi. Kənarları qırışıq, çökəyə düşmüş gözlərinin ətrafını barmaqlarımla sildim. Əlini ovcumun içində sığallayıb:

- Daha ağlama, hər şey geridə qaldı. Gedək, gecdi, - eləcə əli əlimdə əsas şoseyə çıxıb taksi dayanacağına tərəf yönəldik.

Hökməliyə qədər əllərini buraxmadım. Onu yenidən itirəcəkmişəm kimi əllərini ovcumda sıxmışdım. O isə heç etiraz etmədən, gözlərini belə qırpmadan yolboyu məni heyran-heyran süzür, sanki mənim həqiqətən də mələk deyil, insan olub-olmadığımı aydınlaşdırmaq istəyirdi. Heç birimiz danışmırdıq, elə bil hər ikimiz danışmaqla hansısa sehrin, möcüzənin təsirini azalda, onun ilahiliyini adiləşdirə bilərdik. Yalnız Hökməliyə çatanda sürücünün "burdan hansı tərəfə gedəcəyik?" - sualını cavablandırandan sonra üzünü mənə tutub:

-Yas yerindən gəlirdik. Düşündüm ki, onsuz da evə qayıdıram, pul nəyimə gərəkdi. Nəyim vardısa dua, yasin oxutmaq üçün verdim, nəzir payladım. Bəlkə də, o nəzirlərin savabıdır ki, Allah səni mənə yetirdi, - gözlərinin kənarını pambıq əl dəsmalı ilə silərək davam etdi, - Barmağımda bacımın mənə Həcc ziyarətindən gətirdiyi bir üzük var Sən gələnə qədər o üzüyü tutiya kimi gözlərimə sürtüb Allahdan kömək diləyirdim. O müqəddəs torpağa, ocağa toxunub gəlmiş bu üzük qurban olduğumla mənim aramda bir vasitəçi oldu. Qızım, istəyirəm ki, mənə kömək olduğu kimi, sənin də yoluna işıq salsın, - deyə üzüyünü barmağından çıxarmaq istədi. Əlimi əlinin üstünə qoyub:

- O sənə verilmiş hədiyyədi, xatirədi. Qoy özündə qalsın, sənə həmişə, hər işdə kömək olsun. İnşallah sən də o müqəddəs torpaqları ziyarət edərsən. Oradan mənimçün belə bir üzük hədiyyə gətirərsən, - deyə xətrinə dəyəcəyindən ehtiyat edərək əlavə etdim, - sənin xeyir-duan elə mənimçün hədiyyədi, - kirpiklərini endirməklə razılığını bildirdi.

Yaşadığı ev qəsəbənin mərkəzindən çox da uzaqda deyildi. Taksiyə gözləməyini tapşırıb, qadını darvazasına qədər ötürdüm. Üzümü ovucları arasına alıb tumarladı, sonra alnımdan öpüb:

- Əməlin də, niyyətin də üzün kimi gözəldi. Allah səni xoşbəxt eləsin qızım. Nə mətləbin var yerinə yetsin, inşallah! Sən ki belə böyük ürək sahibisən, o uca Yaradan hər şeyi könlüncə versin, mənim balam. Sənin kimi insanlar olmasa dünya batar. Dünyanın ən yaxşı şeyləri qismətin olsun

Anamın dualarından başqa, eşitdiyim ən səmimi dualar idi. Qəlbdən gələn və qəlbi titrədən dualar Bəlkə də, bu gecə Allahın dərgahına ən tez çatan dualardan olacaqdı?! Çünki bəndə üçün edilən bu xoş diləklər birbaşa Allaha ünvanlanırdı. Məni bu xeyirxah əməli icra etməyə göndərən Allaha

Dualarına görə minnətdarlıq edib üzündən öpdüm. Nəmli gözləri ilə bir daha məni süzüb:

- Heç adını demədin?

- Çiçək - onu bir daha görməyəcəyimə əminmiş kimi mən onun adını soruşmadım. Bunu hiss etdiyi üçün:

- Adım Gözəldi, bu kənddə hamı mənə hörmət eləyir, çünki hamıya yaxşı olmuşam. Bəlkə də, elə buna görə Allah bu gün məni tək qoymadı Nə vaxt bu yerlərə yolun düşsə, istənilən evdə, özüm də başda olmaqla hər kəs sənə canla-başla qulluq edər, - bir az duruxub, - deyəsən subaysan? - deyə ehtiyatla soruşdu.

- Nə bildin?

- Ərdə olsaydın, yoldaşın da səninlə gələrdi.

Bu sadə məntiqlə razılaşmamaq olmazdı. Taksinin xəbərdarlıq siqnalı söhbətimizi yekunlaşdırdı. Bir daha qucaqlaşıb ayrıldıq. Maşının açıq pəncərəsindən onun həyətinə baxırdım. Hər kəs həyəcanla onun ətrafına dövrə vurmuşdu. Deyəsən, aralarından bir kişi hasardan mənə tərəf boylanırdı. Qadının həyətindən qalxan şən səsləri dinləyib rahatlıqla oturacağa yayıldım. Sanki çiynimdən ağır yük götürülmüşdü. Havanın soyuqluğuna və sürücünün narazılığına əhəmiyyət vermədən pəncərəni sona qədər açıb ulduzsuz, ara-sıra kiçik ildırımlar çaxan səmanı seyr edərək hardasa oxuduğum bir misranı pıçıldadım:

***Saldı qara çadrasını yenə başına,***
***Aləmi bürüdü zülmətə gecə.***
***Deyirlər, şəfadır xəstə qəlblərə,***
***Yaxşı çarə qılır səhhətə gecə.***

Bu yaşıma qədər qəlbimə, səhhətimə yaxşı çarə qılan, xoş təsir edən ilk gecəni yaşayırdım. Gecələrə nifrət etdiyimdən onları yaşamadan, yatıb-ötürməyə üstünlük verərək, gətirə biləcəyi xoş təəssüratlardan belə uzaq olmuşam. Amma bu gecə başqa idi Yeni doğulmuş körpə kimi özümü tərtəmiz, məsum, qayğısız hiss edirdim. Bu gecə Tanrıya bir pillə daha yaxın idim Bu gecə elə mən də özümü mələk sayırdım

***(Ardı növbəti şənbə sayımızda)***